**A Z Ə R B A Y C A N   R E S P U B L İ K A S I**
**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**
**S Ə R Ə N C A M I**

---

№ 52　　　　　　　　　　　　　　　　　　　«19» Mart 2026-cı il

**Azərbaycan Respublikası vətəndaşlarının 2026-cı il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılmasının və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılmasının təmin edilməsi tədbirləri haqqında**

"Azərbaycan Respublikası vətəndaşlarının 2026-cı il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 23 fevral 2026-cı il tarixli 943 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 3.15.4-cü, 3.15.5-ci bəndlərinin tələblərinə əsasən

**qərara alıram:**

1. 2008-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1996–2007-ci illərdə doğulmuş, yaşı 30-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşlarının 2026-cı il il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılmasını təmin etmək məqsədilə həqiqi hərbi xidmətə çağırışın keçirilməsinə rəhbərlik və nəzarət üzrə yaradılmış çağırış komissiyasının və çağırış komissiyasının işinə cəlb edilmiş həkim mütəxəssislərin fərdi tərkibi aşağıdakı kimi təsdiq edilsin:

***Çağırış komissiyasının tərkibi:***

N.Əliyev – Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi Rayon İdarəsinin rəisi vəzifəsini müvəqqəti icra edən, polkovnik-leytenant komissiyanın sədri

| | | |
|---|---|---|
| H.Babayev | – | Rayon İcra Hakimiyyəti başçısının birinci müavini, komissiyanın sədr müavini |
| R.Qocayev | – | Rayon Polis İdarəsi rəisinin xidmət üzrə müavini, polis kapitanı, komissiyanın üzvü |
| N.Əliyeva | – | Hərbi həkim komissiyasının sədri, Otorinolarinqoloq, komissiyanın üzvü |

***Çağırış komissiyasının işinə cəlb edilmiş həkim mütəxəssislərin fərdi tərkibi:***

| | | |
|---|---|---|
| Ş.Fətəliyeva | – | Terapevt |
| N.Abbasova | – | Cərrah |
| L.Məlikova | – | Nevropatoloq |
| R.Məmmədov | – | Dermatovenerolоq |
| N.Əliyeva | – | Otorinolarinqoloq |
| L.Məlikova | – | Psixiatr |
| T.Fətəliyeva | – | Oftalmoloq |
| N.Qasımova | – | Stomatoloq |
| S.Xanəliyeva | – | Tibb bacısı |
| X.Salahova | – | Komissiyanın katibi |

3. Rayon çağırış komissiyasına tapşırılsın ki, vətəndaşların Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağırışını "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq təşkil etsin.

4. Rayonun idarə, müəssisə və təşkilat rəhbərlərinə, MKİS-nin rəislərinə və Rayon İcra Hakimiyyəti başçısının inzibati ərazi üzrə qəsəbə nümayəndələrinə tapşırılsın ki, vətəndaşların həqiqi hərbi xidmətə çağırışının keçirilməsi işinin təşkili ilə bağlı SHXÇDX-nin Binəqədi Rayon İdarəsinə hərtərəfli köməklik göstərsinlər.

5. Hərbi-həkim komissiyasının sədrinə tapşırılsın ki, Rayon Çağırış Komissiyasının müvafiq tibbi texnika, alətlər və digər ləvazimatlarla təchiz edilməsinə, həkim mütəxəssislərin Rayon Çağırış Komissiyasında işə davamiyyətinə və çağırışçıların tibbi şəhadətləndirilməsinin keyfiyyətli keçirilməsinə nəzarəti təmin etsin.

6. Binəqədi Rayon Polis İdarəsinə tapşırılsın ki, vətəndaşların müddətli həqiqi hərbi xidmətə çağırışını həyata keçirməkdə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin

Binəqədi Rayon İdarəsinə hərtərəfli köməklik göstərsinlər, müddətli həqiqi hərbi xidmətə çağırışdan yayınan şəxslərin axtarışının həyata keçirilməsi üçün lazımi tədbirlər görsünlər, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi Rayon İdarəsində ictimai asayişin təmin olunmasını təşkil etsinlər.

7. Çağırışın gedişatı ilə əlaqədar olaraq Rayon İcra Hakimiyyətinə vaxtaşırı məlumat verməklə, Sərəncamdan irəli gələn tələblərin yerinə yetirilməsinə nəzarət Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi Rayon İdarəsinin rəisi vəzifəsini müvəqqəti icra edən, polkovnik-leytenant Əliyev Nizami Bayramqulu oğluna tapşırılsın.

8. Sərəncamdan çıxarış mətndə qeyd olunan bütün qurumlara göndərilsin.

**Elxan Allahverdiyev**

**ƏSLİ İLƏ DÜZDÜR:**
**Sənəd dövriyyəsi, vətəndaş müraciətləri**
**və inzibati işlər şöbəsinin müdiri** **Sabir Əliyev**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN